AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 29.08.2018 |
| Qeydiyyat nömrəsi | 49 |
| Adı | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 2017-ci il 27 iyul tarixli 34 nömrəli qərarı ilə təsdiq edilmiş "Nadir hallarda rast gələnən və spesifik müalicə tələb edən xəstəliklərin müalicəsi üçün nəzərdə tutulan dərman vasitələrinin siyahısı"nda dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 08.09.2018 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 220.050.020 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201808290049 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 07.09.2018 |

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 06 fevral tarixli 528 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini, 17-ci və 19-cu hissələrini rəhbər tutaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 2017-ci il 27 iyul tarixli 34 nömrəli qərarı ilə təsdiq edilmiş "Nadir hallarda rast gələnən və spesifik müalicə tələb edən xəstəliklərin müalicəsi üçün nəzərdə tutulan dərman vasitələrinin siyahısı"na aşağıdakı məzmunda 102-ci və 103-cü hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 102. | Mestinon/Mestinon | Pyridostigmine bromide | F.Hoffmann-La Roche Ltd |
| 103. | Kalium xlorid/ Potassium chloride | Potassium chloride 7,5% | Yuriya-Farm MMC, Ukrayna |

2. Hüquq və daxili nəzarət sektoruna (E.Əzizov) tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Qərarın icrasına nəzarət nazir müavini Elsevər Ağayevə həvalə edilsin.

**Kollegiya sədrinin və Nazirin səlahiyyətlərini müvəqqəti icra edən** **Elsevər Ağayev**

Kollegiyanın məsul katibi vəzifəsini müvəqqəti icra edən Səbinə Əhmədova